Xalq qəzeti.- 2025.- 30 yanvar (№ 20). - S.12.

# Tofiq Bəhramovun xatirəsi anılıb

**AFFA rəhbərliyi və futbol ictimaiyyətinin nümayəndələri Tofiq Bəhramovun məzarını ziyarət ediblər.**




Bu barədə milli assosiasiyanın mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, yanvarın 29-u dünya şöhrətli azərbaycanlı hakim Tofiq Bəhramovun anadan olmasının 100 illik yubileyidir.

Tofiq Bəhramov "Qızıl fit" və "Qızıl ilahə" mükafatlarının sahibi, dünya futbol tarixində heykəli olan və adı stadiona verilən ilk hakimdir.

1966-cı ildə İngiltərədə keçirilən 1966–FİFA Dünya Kubokunun finalında Tofiq Bəhramovun İngiltərə milli futbol komandasının lehinə verdiyi obyektiv qərar Uembli stadionuna toplaşmış 98 min tamaşaçının yaddaşına həkk olunub.

Tofiq Bəhramov 1993-cü il martın 26-da dünyasını dəyişib.